# Alında və kağızda yazılanlar



Noyabrın 14-də Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda yazıçı-dramaturq, AYB-nin katibi Elçin Hüseynbəylinin "Gültəkin xaqan" romanı əsas olmaqla 6 kitabının təqdimat və imza günü oldu.

Tədbiri Elçin Hüseynbəylinin özü açdı. Qeyd etdi ki: "Azərbaycanda ilk dəfə olaraq Xalq yazıçısı Anarın təşəbbüsü ilə mənim "Şah Abbas" kitabımın imza günü keçirilib. Həmin vaxtdan bəri imza günləri bir ənənə şəkli alıb. Çox sayda belə tədbirlər keçirilib. İndi 16 ildən sonra "Gültəkin Xaqan", "Pərixan" və son illərdə nəşr edirlmiş başqa kitablarımın imza günündə qələm dostlarımla bir arada olmaqdan çox şadam..."

Sonra yazıçı yaxın aylarda nəşr etdirdiyi kitablar barədə ətraflı məlumat verdi. "Gültəkin xaqan", "Pərixan" adlı tarixi romanları üzərində xüsusi dayanaraq hər iki əsərin başlıca qayələrindən söz açdı.

Xalq yazıçısı, AYB-nin sədri Anar çıxış edərək qeyd etdi ki, Elçin Hüseynbəyli bizim çox istedadlı yazıçılardandır: "Elçinin timsalında ədəbiyyatımızda maraqlı, bənzərsiz, orijinal bir nasir yetişmişdir. Onun əsərlərində sürrealizm, əfsunlu realizm elementləri də var, mifik təfəkkür də, folklora və tarixə bağlılıq da və bunların sintezi süni deyil, yazıçının daxili dünyasından keçirilmiş bir sintezdir. Elçin Hüseynbəyli alnında yazılanlara görə yazıçıdır... Elçin Hüseynbəyli kağızda yazdıqlarına görə yazıçıdır. O, yolunun başlanğıcında deyil, yetkinlik çağındadır. Yazdığı dəyərli əsərlərə bundan sonra da müxtəlif janrlarda yenilərinin, daha da qiymətlilərinin əlavə olunacağına inanıram..."

Xalq yazıçısı, AYB-nin birinci katibi Çingiz Abdullayev E.Hüseynbəylinin yaradıcılıq məziyyətlərindən bəhs edərək dedi: "O, çoxəsrlik ədəbiyyatımıza yeni çalar qatan qələm adamıdır. Onun bəzi kəlamları sufilərin fəlsəfəsini xatırladır. Məsələn, "Keçmişi olmayanın yaddaşı, yaddaşı olmayanın gələcəyi ola bilməz. Yaddaşsız insan qoxusuz çiçək kimidir..." Mən nadir halda qələm dostlarımın yaradıcılığı barədə ayrıca məqalə yazmışam. Onlardan biri, bəlkə də birincisi, bəlkə də yeganəsi Elçin Hüseynbəylidir. Onun yaradıcılığı çoxşaxəlidir. Tarixlə müasirliyin bir araya gəlməsi prosesidir. Bu hal burada təqdim olunan kitablara daxil edilən romanların da ana xəttini təşkil edir".

Akademik Nizami Cəfərov çıxış edərək dedi: "Elçin Hüseynbəylinin imzasını böyük yazıçı, tədqiqatçı və fikir adamı Yusif Vəzir Çəmənzəminlinin xatirəsinə ehtiramla (və "Səkkizinci Qarabağnamə" iddiası ilə!") qələmə aldığı "Yenə iki od arasında" romanıyla daha yaxından tanımışam. Bu roman yalnız Elçinin yaradıcılığı deyil, bütövlükdə, müasir ədəbi-ictimai təfəkkür prosesi miqyasında həm böyük maraq doğuran, həm də bir sıra əhəmiyyətli məsələlər ətrafında səmərəli mübahisələrə rəvac verən əsərlərdəndir. Elçin Hüseynbəyli əsərdə Ustadın sürgün həyatını canlandırmağa, "bərpa etməyə" çalışır... Elçin Hüseynbəyli, ədalət naminə demək lazımdır ki, Ustadı həm görür, həm də eşidir... Onun tərcümeyi-halını ilk mənbədən alırmış kimi, heç bir tərəddüdə yol vermədən, heç bir mübahisəyə yer qoymadan yazır... Bu münasibət onun "Gültəkin xaqan" və "Pərixan" romanlarına da xas olan cəhətlərdir. Onun bədii detalları obrazların (və tarixi şəxsiyyətlərin) gerçək həyat mənzərələrini müxtəlif yönlərdən canlandırır. İndiyə kimi qədim türklərdən daha çox bədii müstəvidə yazan qıpçaqlar, o cümlədən Çingiz Aytmatov və Oljas Süleymenov olub. Bu prosesi Azərbaycanda Elçin Hüseynbəyli davam etdirir".

Millət vəkilləri Hikmət Babaoğlu və Ceyhun Məmmədov daha çox E.Hüseynbəyli yaradıcılığının ideya-məfkurəvi, ideoloji əhəmiyyətindən söz açdılar. Vurğuladılar ki, Elçin Hüseynbəyli öz tarixi pomanları ilə ilkinliyi, kökü bugünümüzə daşıyır, tarixin bədii şəklini təqdim edir. Bu təsvir və materiallar əslində, ən ciddi elmi araşdırmalar, dissertasiyalar üçün mükəmməl məlumatlar verir...

Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev və ədəbiyyatşünas Telman Vəlixanlı da Elçin yaradıcılığının bu vacib və üstün cəhətlərini önə çəkdilər: "Elçin Hüseynbəyli bugünkü reallıqlarımızı, tarix və mənəviyyatımızın aktual məsələlərini ustalıqla qələmə alır... İndi çoxları özümüzə məxsus olan dəyərlər üzərindən sükutla keçmək istəyirlər. Tutaq ki, Şah İsmayıl mövzusunun... Amma bu, bizim tariximizdi. "Elçin daim axtarışda olan, ədəbi tapıntıları ilə oxucularını təəccübləndirən yazıçıdır. Onun bu gün təqdim edilən əsərləri, eləcə də "Şah Abbas" romanı milli ideologiyamızın - azərbaycançılığın hansı özül üzərində yüksəlməsi yönümündə axtarışlara xidmət edir" (Telman Vəlixanlı).

Tanınmış tənqidçilər Əsəd Cahangir və Bəsti Əlibəyli də Elçinin yaradıcılığını tarixi gələnəklər kontestində incələdilər. Qeyd etdilər ki, o, öz yaradıcılığında paralel süjetlərə ustalıqla müraciət edir. Təqdim edilən kitablar, yeni tarixi romanlar onun yaradıcılığında yeni bir mərhələdir. Elçin zaman və məkan içindən çıxıb və yenidən o zaman və məkana qayıdış mərhələsini (eyni zamanda, prosesini) tarixi əsərlərində ustalıqla uzlaşdıra bilən istedadlı qələm adamıdır. Bu əsərlərdə səhnə həyatımız və kino yaradıcılığımız üçün olduqca gərəkli material var...

Sonda Elçin Hüseynbəyli tədbirin təşkilatçılarına və iştirak edən qələmdaşlarına təşəkkürünü bildirdi, oxucular üçün kitablarını imzaladı.

*Sərvaz HÜSEYNOĞLU*